# Masallı yüksəliş yolларında

**❐ *Ölkəmizin sürətlə inkişaf edən, zəruri infrastrukturu yaranan rayonlarından biri də Masallıdır. Hər ötən il bu rayonda neçə-neçə yaddaqalan hadisə ilə tarixə qovuşur. Elə 2016-cı il də bu baxımdan istisna təşkil etməyib.***



Rayon mərkəzindəki Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzində keçirilən illik hesabat yığıncağında Masallının uğur salnaməsinə bir daha nəzər salınıb və perspektiv vəzifələr müəyyənləşdirilib. İcra başçısı Rafil Hüseynov sentyabrın 3-də rayona səfər etmiş Prezident İlham Əliyevin burada görülən quruculuq işlərini təqdir etməsini çox yüksək qiymət kimi dəyərləndirib. Belə ki, cənab İlham Əliyev həmin gün bir sıra sosial-mədəni obyektlərin açılışında iştirak etmişdir. "ASAN Həyat" kompleksi, Bayraq meydanı və Dövlət rəmzləri muzeyi, Uşaq incəsənət məktəbi, Tarix-diyarşünaslıq muzeyi, Masallı şəhərinin içməli su təchizatı sistemi cənab Prezidentin xeyir-duası ilə istifadəyə verilmişdir. Prezidentin sərəncamı ilə Masallı şəhərində çoxmənzilli binaların əsaslı təmiri məqsədi ilə üç milyon manat vəsait ayrılmışdır. Bu, cənab Prezidentin Masallıya, Masallı sakinlərinə olan diqqət və qayğısının bariz nümunəsidir.

Məruzəçi sonra bildirib ki, ötən il rayonda sosial-iqtisadi inkişaf göstəricilərinə görə uğurlu olmuş və yeni iş yerlərinin yaradılması, tikinti-quruculuq, abadlıq işlərinin sürətlə davam etdirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilmişdir.

Ümumi uzunluğu 5,5 kilometr olan Heydər Əliyev prospektində genişləndirilmə işləri aparılmışdır. Prospektin eni 14 metrə çatdırılmış, hər iki tərəfində yaşıllıq zolağı salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Hesabat ilində yaradılmış Bayraq meydanı və Dövlət rəmzləri muzeyi, "ASAN Həyat" kompleksi, Viləş çayının yatağında park–bulvar, yaşıllıq zolaqları göz oxşayır.

Hesabat ilində Kənd Təsərrüfatı Nazirliyinin Masallı rayon inzibati laboratoriya binası, Masallı rayonlararası mühafizə bölməsinin inzibati binası tikilərək istifadəyə verilmişdir.

Prezident İlham Əliyev tərəfindən müvafiq qurumlara verilən tapşırıqlara əsasən Muğan zonası və Qızılağac istiqamətində olan 42 kəndin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə layihələndirmə işləri aparılmış və "Viləşçay" su dəryaçasından su xəttinin çəkilməsinə başlanılmışdır. Eyni zamanda, şəhər ərazisində kanalizasiya xətlərinin çəkilişi ilə əlaqədar son tamamlama işləri aparılır.

13 binanın dam örtüklərində və fasadlarında əsaslı təmir işləri başa çatdırılmışdır. Daha 18 kommunal yaşayış binasının təmirinə başlanılmışdır ki, bu da 230 yeni iş yerinin açılmasına səbəb olmuşdur. Bununla da Masallı şəhərindəki bütün çoxmənzilli binaların dam örtüyünün təmiri başa çatdırılacaq.

Hesabat ilində 4 məktəb – 140 yerlik Çayqıraq, 140 yerlik Dəlləkoba, 120 yerlik Köhnə Zuvand və 180 yerlik Şatıroba kənd ümumi orta məktəbləri, Xıl, Səmidxan, Göyəçöl, Yeyənkənd və Babaser kənd həkim məntəqələri tikilərək istifadəyə verilmişdir. Hazırda Lürən, Məmmədoba həkim məntəqələrinin tikintisi davam etdirilir. Eyni zamanda Mərkəzi Xəstəxananın əsaslı təmiri başa çatdırılaraq istifadəyə hazır vəziyyətə gətirilmişdir.

Rayonda işıq və qaz təchizatı da yaxşılaşır. Hazırda rayonun 5 yaşayış məntəqəsində qaz xətlərinin çəkilişi işləri aparılır. Əhalinin 95 faizə yaxını qazla təmin olunur. Hesabat ilində ümumilikdə 93,63 kilometr uzunluğunda kəndarası yollarda təmir işləri aparılmışdır.

Rayon üzrə məhsul istehsalı və göstərilən xidmətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə artaraq 571,3 milyon manat olmuşdur. Bu dövrdə sənaye məhsullarının həcmi 38,1 milyon manata, kənd təsərrüfatı məhsullarının həcmi 2,8 faiz artaraq 112,6 milyon manata çatmışdır.

Rayonda 3027 yeni iş yeri açılmışdır ki, onlardan 2599-u daimidir. 220 mindən çox sakini olan Masallıda əhalinin 90 faizə qədəri kəndlərdə yaşayır və əkinçiliklə məşğul olur. Qeyd edilib ki, Masallı rayonunda kənd təsərrüfatının inkişaf etdirilməsi və gəlirli sahəyə çevrilməsi qarşımızda duran ən prioritet məsələdir. Qarşıdakı ildə isə rayon ərazisində 100 hektar sahədə çəltik, əlavə olaraq 25 hektar sahədə çiyələk və 1000 hektar sahədə çay plantasiyasının salınması nəzərdə tutulmuşdur. Bununla əlaqədar müvafiq tədbirlər həyata keçirilir.

Faraş tərəvəz, giləmeyvə və sitrus bitkiləri əkinlərinin genişləndirilməsi rayonda ən azı 5000 ton tərəvəz, 5000 ton sitrus meyvələrinin saxlama gücünə malik soyuducu anbarların, topdan və pərakəndə satış-ekspozisiya bazarının, habelə bu məhsulların ilkin emalı üçün müəssisəsinin tikilməsi zərurətini yaratmışdır. Rayon ərazisində "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC tərəfindən regional tədarük mərkəzi yaradılmışdır.

Masallıda Sənaye məhəlləsinin yaradılması üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən sərəncam imzalanmışdır. Artıq Sənaye məhəlləsinin tikilməsi üçün hazırlıq işlərinə başlanılmışdır.

Tədbirdə çıxış edən idarə və müəssisə rəhbərləri, sahibkarlar qazanılmış uğurlardan danışmışlar. Prezident Administrasiyasının məsul işçisi Habil Əzənmədov, Milli Məclisin deputatları Nəriman Əliyev, Elmira Axundova və Musa Qasımlı çıxış edərək rayonda görülmüş işləri yüksək qiymətləndirmiş, görüləcək işlərin uğurlu olacağına inandıqlarını əminliklə ifadə etmişlər.

Yığıncağın yekunu ilə bağlı rayon sakinləri adından Prezident İlham Əliyevə müraciət qəbul edilmişdir. Rayonun ictimai-siyasi həyatında fəal iştiraklarına görə bir neçə nəfər rayon icra hakimiyyətinin fəxri fərmanları və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.